

DOI: https://doi.org/10.30546/19023.978-9952-8566-7-5.2025.674310.
ISBN: 978-9952-8566-7-5

# 12TH INTERNATIONAL ARTEMIS SCIENTIFIC RESEARCH CONGRESS PROCEEDINGS BOOK

Türkiye, Philippines, Nigeria, Morocco, Romania, Albania, Portugal, Poland, Azerbaijan, Kazakhistan, Uzbekistan, Pakistan, Algeria, India, North Macedonia, Taiwan, Namibia, Spain.

EDITORS
PROF. DR. PAPATYA KARAKURT
PROF. DR. GHEORGHE GIURGIU

BZT TURAN
PUBLISHING HOUSE

# 12th INTERNATIONAL ARTEMIS SCIENTIFIC RESEARCH CONGRESS

MAY 28-30, 2025

ONLINE & IN-PERSON PARTICIPATION

ZOOM & BUCHAREST, ROMANIA

# CONGRESS PROCEEDINGS BOOK

## EDITORS

**Prof. Dr. Papatya KARAKURT**

**Prof. Dr. Gheorghe GIURGIU**

**BZT AKADEMİ YAYINEVİ®**

BUCHAREST, ROMANIA

TR: +90543 671 0123 AZ: +994 50 300 2920

**PUBLISHED IN BAKU, AZERBAIJAN**

artemiscongress@gmail.com

https://www.artemiscongress.com/

All rights reserved

**BZT AKADEMİ YAYINEVİ®**

**BZT TURAN PUBLISHING HOUSE**

**Publishing Date: 07.06.2025**

**DOI: https://doi.org/10.30546/19023.978-9952-8566-7-5.2025.674310.**

**ISBN: 978-9952-8566-7-5**

DOI: https://doi.org/10.30546/19023.978-9952-8566-7-5.2025.674310.
ISBN: 978-9952-8566-7-5



# CORRECT STRUCTURE OF AN ACTIVE LESSON IN THE METHODOLOGY OF TEACHING FINE ARTS

## TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏRİSİ METODİKASINDA FƏAL DƏRSİN DÜZGÜN QURULMASI

**Emil Raul oğlu Ağayev**

Teacher of the subject combination commission "Art and physical education" of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University
ORCID NO: 0000-0001-9354-0839

**Xülasə.**Hər bir fənnin tədrisində olduğu kimi təsviri incəsənətdə də müəllim şagirdlərə dərsin planlamasını düzgün aparmalıdır. Fəal dərsin düzgün qurulmasında ilkin addım motivasiya və ya problemin qoyuluşudur. Motivasiya zamanı müəllim təsviri incəsənət fənnində şagirdlərdə yaradıcı düşüncə və estetik reaksiyanı ön plana çıxarmalıdır. Tədqiqatın aparılması zamanı isə müəllim fərziyyələr irəli sürə bilər. Təsviri incəsənət fənnində müxtəlif rəssamların yaradıcılığı haqqında tədqiqat sualları verə bilər. İnformasiya mübadiləsi zamanı təsviri incəsənət fənnində əldə etdikləri bilikləri şagirdlər bir-birləri ilə müzakirə apararaq cavab tapmağa çalışırlar. İnformasiyanın müzakirəsi isə yaradıcı fənnin tədrisində mühümdür. Bu zaman müəllim bütün məlumatları sistemləşdirməlidir. Təsviri incəsənət fənninin tədrisində mövcud tədqiqat sualı cədvəllər və ya yaradıcı fikirlərlə tamamlana bilər. Fəal dərsin növbəti mərhələsi nəticə və ümumiləşdirmədir ki, şagird təsviri incəsənət fənni haqqında öyrəndiyi yeni biliyi müstəqil olaraq yekunlaşdırmalıdır. Yaradıcı tətbiqetmə zamanı isə təsviri incəsənət müəllimi rəsm işi və ya rəssamların yaradıcılığının müqayisəli təhlilini şagirdlərə təqdim edə bilər. Sonda isə təsviri incəsənət müəllimi qiymətləndirmədən istifadə etməlidir.

**Açar sözlər:** Təsviri incəsənət, fəal dərs, metodika, yaradıcılıq, təhsil

**Abstract.**As in the teaching of every subject, in fine arts, the teacher must plan the lesson for the students correctly. The first step in organizing an active lesson correctly is motivation or posing a problem. During motivation, the teacher should bring creative thinking and aesthetic response to the forefront in the fine arts subject. During research, the teacher can put forward hypotheses. In the fine arts subject, he can ask research questions about the creativity of various artists. During information exchange, students try to find answers by discussing the knowledge they have acquired in the fine arts subject with each other. Discussion of information is important in teaching creative subjects. At this time, the teacher must systematize all the information. In the subject of fine arts, research questions can be asked about the creativity of various artists. During the exchange of information, students discuss the knowledge they have acquired in the subject of fine arts with each other and try to find

DOI: https://doi.org/10.30546/19023.978-9952-8566-7-5.2025.674310.
ISBN: 978-9952-8566-7-5

answers. The discussion of information is important in the teaching of the creative subject. At this time, the teacher must systematize all the information. In the teaching of the subject of fine arts, the existing research question can be supplemented with tables or creative ideas. The next stage of the active lesson is the conclusion and generalization, in which the student must independently summarize the new knowledge he has learned about the subject of fine arts. During creative application, the fine arts teacher can present a comparative analysis of the work of art or the creativity of artists to the students. Finally, the fine arts teacher should use assessment.

**Keywords:** Fine arts, active learning, methodology, creativity, education

Hər bir fənnin tədrisində olduğu kimi təsviri sənət fənninin tədrisi metodikasında da şagirdləri dərsə cəlb etmək üçün fəal dərsin düzgün qurulmasında müəllim diqqətli olmalıdır. Bu formada dərsin keçirilməsi zamanı müəllim maraqlı dərs üsulu ilə bir daha şagirdi fənnə qarşı cəlb edir. Əlbəttə ki, fəal dərsin düzgün qurulmasında əsas mərkəz şagirddir.

Fəal dərsin birinci mərhələsi motivasiyadır. Təsviri sənət müəllimi motivasiya zamanı videolardan, şəkillərdən geniş istifadə edə bilər. Xüsusilə rəssamların yaradıcılığını keçərkən süni intellektlə onların əsərlərini canlandıra bilər. V sinif şagirdlərinə "Simvollara çevrilmiş təbiət" mövzusunu keçərkən müəllim lövhədə simvolları təqdim edərək, onlardan mənalarını soruşa bilər. Bu zaman şagirdlər doğru və səhv fikirlər söyləyə bilər, təsviri incəsənət müəllimi hər bir münasibəti dəstəkləməlidir.




**İLL 1. Xalq sənətində simvollar və onların mənası**

DOI: https://doi.org/10.30546/19023.978-9952-8566-7-5.2025.674310.
ISBN: 978-9952-8566-7-5


Növbəti mərhələdə tədqiqatın aparılması zamanı təsviri incəsənət müəllimi şagirdlərə müxtəlif fakt və suallar verməli, həmin istiqamətlər üzərində onları çalışdırmalıdır. Bu zaman müəllim qruplarla iş üsulunu ön plana çıxarmalıdır. V sinif şagirdlərinə "Azərbaycan tikmələrində kompozisiya" mövzusunu keçərkən müəllim şagirdlərə ilk növbədə mövzunu sinifdə oxumağı tapşırmalıdır. Sonra isə qruplara istədikləri tikmənin kompozisiyanı yaradıcı düşüncələrindən istifadə etməklə qurmağı təqdim edə bilər.



**İLL 2. Təkəlduz tikmə üsulu**

Növbəti mərhələdə şagirdlər informasiya mübadiləsi aparırlar. Onlar işlədikləri eskiz, rəsm və ya esseləri qarşılıqlı formada müzakirə edirlər. İlkin olaraq natamam olan biliklər, getdikcə təkmilləşdirilir.

İnformasiyanın müzakirəsi və təşkili zamanı təsviri sənət müəllimi təfəkkürün müxtəlif növlərini istifadə edir. Bu zaman müəllim əvvəlki və yeni bilikləri əlaqələndirici suallar təqdim etməlidir. "Azərbaycan xalça muzeyi" mövzusunu keçərkən müəllim şagirdlərə aşağıdakı sualları təqdim edə bilər:

-Xovlu və xovsuz xalçaların oxşar-fərqli cəhətləri haqqında hansı fikirləri söyləyə bilərsiniz?

-Xovlu xalçalarda əsas kompozisiyalar hansılardı?

DOI: https://doi.org/10.30546/19023.978-9952-8566-7-5.2025.674310.
ISBN: 978-9952-8566-7-5



**İLL 3. “Malıbəyli” xalçası**

Nəticə və ümumiləşdirmə zamanı şagirdlərə yeni biliyin kəşf edilməsi istiqamətində son addımı atmaq lazımdır. Bu zaman şagirdlər təsviri sənətdə mövzunu öyrənərkən nəticə və ümumləşdirmə metodunu ön plana çıxarmalıdırlar. Təsviri sənət müəllimi aşağıdakı fikirlərə üstünlük verməlidir:

-Fərdi xüsusiyyətlərə;

-rəng, obraz, süjet və kompozisiya həllinə;

-real həyatla təsviri sənətin qarşılıqlı əlaqəsi;

-incəsənət əsərini təhlil etmə bacarığına.

Yaradıcı tətbiqetmə zamanı təsviri sənət müəllimi şagirdlərə mövzu haqqında esse və ya rəsm işləri üzərində tapşırıq təqdim edə bilər. Bu zaman şagirdlərə yaradıcı, düşündürücü və təhliletmə xüsusiyyətinə malik olan tapşırıqlar ön plana çıxarılmalıdır.

Qiymətləndirmə zamanı təsviri incəsənət müəllimi şagirdlərin özlərinə və ya qarşılıqlı qiymətləndirmə üsulunu istifadə etməlidir. Bütün dərs prosesi zamanı şagird öz yaradıcı düşüncə və qabiliyyətini özü qiymətləndirsə daha uğurlu hesab edilə bilər. Əlbəttə ki, müəllim qiymətləndirmənin bütün qayda və meyarlarını öncədən şagirdlərə açıqlamalıdır.

Fəal dərsin təsviri incəsənət fənninin tədrisində rolu şagirdin maraq və qabiliyyətinin düzgün və doğru inkişaf etdirilməsinə əsaslandırılmalıdır.

DOI: https://doi.org/10.30546/19023.978-9952-8566-7-5.2025.674310.
ISBN: 978-9952-8566-7-5


## ƏDƏBİYYAT SİYAHISI:

1.Veysova Z. Fəal/ interaktiv təlim:müəllimlər üçün vəsait.s 18-23.

2.Ümumtəhsil məktəblərinin V sinfi üçün təsviri incəsənət fənni üzrə dərslik. Bakı 2020. 80 s.